14 avqust 2020-ci il
№25 (8889)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

## Bu sayımızda

**Təhsil naziri İƏT-in Təhsil İnstitutunun Himayəçilər Şurasının iclasında iştirak edib**
⇨səh.3

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin orta ixtisas və ali təhsilə dəstəyi**
⇨səh.5

**"Əsgər marşı" şagirdlərin ifasında**
⇨səh.7

**İstedad sorağında**
⇨səh.8

# Müəllim, şagird və valideynlərlə videokonfrans



Avqustun 13-də Təhsil naziri Emin Əmrullayev ölkənin müxtəlif regionlarından olan 50-yə yaxın valideyn, şagird və müəllimin iştirakı ilə videokonfrans keçirib.

Görüşdə Təhsil naziri koronavirus pandemiyası dövründə 2020-2021-ci tədris ilinə hazırlıqla bağlı görülən işlər barədə danışıb. Müxtəlif təkliflər və onların icra mexanizmi haqqında iştirakçılara məlumat verilib.

Görüş zamanı çıxış edən müəllim, şagird və valideynlər 2020-2021-ci tədris ili ilə bağlı öz fikirlərini bildiriblər. Həmçinin təklif olunan modellər haqqında müzakirələr aparılıb.

# Müəllim olmaq istəyənlər üçün

Son illər ölkəmizin təhsil sistemində davamlı surətdə həyata keçirilən müəllimlərin işə qəbulu imtahanları səriştəli, hazırlıqlı, yüksək motivasiyalı təhsilverənlərin ümumtəhsil müəssisələrinə gəlməsinə imkan verib. Bu proses son illərin ən mühüm keyfiyyət göstəriciləri ilə müşayiət olunmaqdadır. Müəllimlərin işə qəbulu prosesinin şəffaflığı, əlçatanlığı və nəticələri təhsil sistemində müsbət inkişaf dinamikasının güclənməsi, rəqabətli təhsil mühitinin formalaşması, müəllim peşəsinin nüfuzunun artmasına gətirib çıxarıb.

Avqustun 14-dən start götürəcək müəllimlərin işə qəbul müsabiqəsinin bütün dünya təhsil sistemlərini sınağa çəkən koronavirus pandemiyası dövrünə təsadüf etməsi bu prosesin təşkili, keçirilməsi şərtlərində də özünü göstərməkdədir. Bunlar barədə Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Murad Camalzadə avqustun 11-də jurnalistlərə açıqlamasında bildirib.

### İmtahanlar 17 bölgədə keçiriləcək

2019-2020-ci tədris ili üzrə müəllimlərin işə qəbulu imtahanında iştirak etmək üçün 50 mindən artıq vətəndaşın qeydiyyatdan keçdiyini bildirən M.Camalzadə əlavə edib ki, 46 mindən artıq şəxs test imtahanlarına qatılmaq imkanı qazanıb. Hazırda müəllimlərin işə qəbulu üzrə müsabiqənin ikinci mərhələsi olan test imtahan mərhələsinə hazırlıq gedir. M.Camalzadə qeyd edib ki, əvvəlki illərdən fərqli olaraq builki test imtahanlarının təşkili ilə bağlı müəyyən fərqlər var. Bu da mövcud olan indiki şəraitlə bağlıdır, kütləvi sayda insanların eyni əraziyə cəmləşdirilməməsi, eyni zamanda giriş-çıxış məhdudiyyətləri və s. nəzərdə tutulub. Əsas dəyişikliklərdən biri ondan ibarətdir ki, cari ildə test imtahanları müvafiq, namizədlərin yaşadığı əraziyə uyğun olaraq 17 bölgədə təşkil edilən 32 mərkəzdə keçiriləcək. İmtahanların davam etmə müddəti 90 dəqiqədir. İmtahanlar avqust ayının 14-dən başlayaraq, şənbə və bazar günləri istisna olmaqla 18 gün davam edəcək. Test imtahanlarının təqribən sentyabr ayının ilk 10 günlüyündə başa çatdırılması planlaşdırılır. Mövcud pandemiya şəraiti, eyni zamanda planlaşdırma işləri ilə əlaqədar olaraq imtahan tarixləri haqqında məlumat hissə-hissə və avqustun 11-dən etibarən yaxın günlərdə keçiriləcək test imtahanları ilə bağlı məlumatlar- fizika, fransız dili, biologiya, Azərbaycan dili və ədəbiyyat, təsviri incəsənət, rus dili və ədəbiyyat fənləri üzrə imtahanların qrafikləri namizədlərin şəxsi səhifələrinə göndərilib. Digər fənlər üzrə də məlumatlar yaxın günlərdə mütəmadi olaraq namizədlərin şəxsi səhifələrinə göndəriləcək.

⇨Ardı səh.3

## 13 rayonda 26 modul tipli məktəb quraşdırılacaq




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə 2016-2019-cu illərdə ölkəmizin 45 bölgəsində ümumilikdə 293 modul tipli məktəb quraşdırılıb. 2020-ci ilin sonuna kimi daha 60 modul tipli məktəb istifadəyə veriləcək.

Dövlət başçısının 8 avqust 2020-ci il tarixli "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" sərəncamına əsasən, 13 rayonda daha 26 modul tipli məktəbin quraşdırılması nəzərdə tutulub. Sərəncama əsasən Təhsil Nazirliyinə 7 milyon manat vəsait ayrılıb.

Modul tipli məktəblərin quraşdırılması ilə bölgələrdə, xüsusilə ucqar kəndlərdə qəzalı və istismar müddəti başa çatmış məktəb problemi tamamilə həll olunacaq.

# Dünya yeni tədris ili qarşısında

## Məktəblərin yenidən açılması təcrübəsindən

Sentyabrda dünyanın bir sıra ölkələrində yeni tədris ili başlayır. Lakin bir sıra ölkələrdə davam edən pandemiya şəraitində məktəblərin necə açılması məsələsi hələ də həllini gözləyir. Uşaqların yazda məktəbə qayıtması təcrübəsi hər yerdə uğurlu olmadı, amma sözsüz ki, mənfi təcrübələr növbəti səhvlərin qarşısını almaq və yeni təhlükəsizlik tədbirlərini inkişaf etdirmək baxımından faydalıdır.

YUNESKO-ya görə, 2020-ci il martın sonunda COVID-19 pandemiyası səbəbindən 190 ölkədə ibtidai və orta məktəblər bağlandı, nəticədə 1,5 milyarddan çox uşaq, həmçinin yeniyetmənin təhsil prosesi dayandırıldı. Distant təhsil müvəqqəti seçim kimi yararlı oldu, lakin müəllimlər və psixoloqlar bu fikirdədirlər ki, uşaqları evdə uzun müddət saxlamaq olmaz, onların məktəbə getməsi, həmyaşıdları və müəllimləri ilə ünsiyyət qurmaları lazımdır; şagirdlərin inkişafı və gələcəyi bundan asılıdır.

ABŞ-ın Xarici Əlaqələr Şurasının (CFR - Xarici Münasibətlər Şurası) portalında yayımlanan məqalədə müxtəlif ölkələrdə karantin tətbiq olunduqdan sonra məktəblərin normal fəaliyyətini davam etdirməsi təcrübəsi araşdırılır.

### Məktəblərin açılmasının çətinliyi nədir?

İndiki situasiyada ən vacib sual budur: dərslərin bərpasından sonra şagirddə və ya müəllimdə COVID-19 üzrə test müsbət olarsa, nə etməli?

Heç kim növbəti dəfə yoluxmanın kəskin artımının olub-olmadığını dəqiq deyə bilməz. Hələlik açıqlanmamış səbəblərdən (o cümlədən, Almaniya, Danimarka, Vyetnam, Yeni Zelandiya) bir çox dövlətlərdə belə artım müşahidə olunmayıb.

İsrail və Cənubi Koreyada isə əksinə, ən pis ssenari baş verib - məktəblər açılışdan dərhal sonra koronavirus infeksiyasının yeni ocağına çevrilib. Ekspertlər İsrail məktəblərində pandemiyanın yeni dalğasının əsas səbəbi kimi məhdudiyyətlərin həddindən artıq tələsik ləğv olunmasını göstəriblər.

ABŞ-ın Xarici Əlaqələr Şurası hesab edir ki, siniflərin kiçik qruplara bölünməsi və sosial məsafə təcrübəsi tələsik ləğv olunub. İndi İsrail birinci mərhələdən daha güclü ikinci infeksiya dalğasını yaşayır, bu isə təhsil sahəsində yanlış qərarların nəticəsi kimi qiymətləndirilir.

Hazırda İsraildə yeni alqoritm hazırlanıb - COVID-19 halları müəyyən edilmiş məktəblər iki həftəliyə bağlanır və bütün müəllimlər, tələbələr karantinə göndərilir. Almaniyada, harada ki, yoluxma səviyyəsi ümumiyyətlə aşağıdır, yanaşma başqadır: dərslər davam edir, karantinə isə yalnız o şəxslər göndərilir ki, virusa yoluxmuş insanlarla ünsiyyətdə olublar.

⇨Ardı səh.7

## SABAH qruplarına müəllimlərin işə qəbulu üzrə müsabiqə

Təhsil Nazirliyinin SABAH qruplarında 2020-2021-ci tədris ilinin payız semestrində müxtəlif fənlərin tədrisini aparmaq məqsədilə professor-müəllim heyəti və mütəxəssislərin işə qəbulu ilə əlaqədar müsabiqə elan edilib.

Müsabiqədə magistr dərəcəsi, yüksək səviyyədə İKT və sahə bilikləri olan, innovativ tədris metodlarından istifadə edə bilən, eyni zamanda müasir pedaqoji yanaşmalara malik, dinamik, pozitiv və ünsiyyətcil namizədlər iştirak edə bilərlər.

Qeyd edilən tələblərə cavab verən namizədlər avqustun 15-dək müraciət formasını doldurmalıdırlar. Müvafiq fənlər üzrə vakant yerlərin siyahısı müraciət formasında qeyd edilib. Hər bir namizəd ixtisasına uyğun vakant yerlər üzrə ən çoxu iki fənn üçün müraciət edə bilər.

Müsabiqə barədə ətraflı məlumatı bu linkə *http://sabah.edu.az/az/sabah-qruplarina-2020-2021-ci-tedris-ilinin-payiz-semestrine-muellim-qebulu* daxil olaraq əldə edə bilərsiniz.



# Müəllimliyə seçilənlər

MİQ-də yüksək bal toplayan müəllimlərin uğur hekayələri

Səh.6



# Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin sentyabr ayında Azərbaycan xalqının igid övladı, İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun anadan olmasının 100 illiyi tamam olur.

Əhmədiyyə Cəbrayılov bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçmişdir. 1941-ci ildə müharibənin başlanması ilə ölkənin müdafiəsi üçün könüllü surətdə cəbhəyə yollanan Əhmədiyyə Cəbrayılov daha sonralar Fransa Müqavimət hərəkatında fəal iştirak etmişdir. Əhmədiyyə Cəbrayılovun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilmişdir. Fransa dövlətinin orden və medalları ilə təltif edilmiş həmvətənimizin, eyni zamanda Müqavimət hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilmişdir. Əhmədiyyə Cəbrayılovun Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə canını fəda edərək uca şəhidlik mərtəbəsinə yüksəlmiş oğlu Mikayıl Cəbrayılov Azərbaycanın ilk Milli Qəhrəmanlarındandır.

Xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının cəsur övladı Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 avqust 2020-ci il*

# Masallı rayonunun Qızılağac kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Masallı rayonunun Qızılağac kəndində 528 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 avqust 2020-ci il*

# Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Respublika ərazisində modul tipli məktəblərin (siyahı əlavə olunur) quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 630 149 000,0 (altı yüz otuz milyon yüz qırx doqquz min) manatının bölgüsü"nün 1.9.2-ci yarımbəndində "Respublika ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması" üçün nəzərdə tutulmuş 7,0 (yeddi) milyon manat Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 avqust 2020-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 avqust tarixli Sərəncamına Əlavə*

## Quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin

## SİYAHISI

| Sıra sayı | Tədbirin adı | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Bərdə rayonunun Məşədiibişli kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 2 | Cəlilabad rayonunun Axtaxana kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 3 | Cəlilabad rayonunun Çəmənli kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 283 000 |
| 4 | Cəlilabad rayonunun Novruzallı kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 5 | Goranboy rayonunun Abbasqulular kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 350 000 |
| 6 | Goranboy rayonunun Gürzallar kəndində 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 283 000 |
| 7 | İmişli rayonunun Oruclu kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 8 | Lerik rayonunun Andurma kəndində 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 256 000 |
| 9 | Lerik rayonunun Aşağı Çayrud kəndində 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 256 000 |
| 10 | Lerik rayonunun Laman kəndində 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 256 000 |
| 11 | Lerik rayonunun Loda kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 12 | Neftçala rayonunun Elektrik şəbəkə kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 13 | Quba rayonunun Kardaş kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 14 | Quba rayonunun Muçu kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 356 000 |
| 15 | Quba rayonunun Ördüc kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 16 | Qusar rayonunun Langi kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 17 | Qusar rayonunun Qullar kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 18 | Qusar rayonunun Torpaq körpü kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 19 | Samux rayonunun Qədili kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 350 000 |
| 20 | Şəki rayonunun Vərəzət kəndində 56 şagird yerlik modul tipli köçkün ümumi orta məktəbinin quraşdırılması | 283 000 |
| 21 | Tovuz rayonunun Mollaayrım kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 207 000 |
| 22 | Xaçmaz rayonunun Çuxuroba kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 23 | Xaçmaz rayonunun Xanlıqoba kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 350 000 |
| 24 | Xaçmaz rayonunun Xanoba kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382 000 |
| 25 | Xaçmaz rayonunun Hacıməmmədoba kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256 000 |
| 26 | Xızı rayonunun Türkoba kəndində 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 256 000 |
| | **Cəmi:** | **7 000 000** |

# Rəqabətqabiliyyətli kadrların hazırlığına xüsusi diqqət artırılmalıdır

## Təhsil naziri ali təhsil müəssisələrinin rəhbərləri ilə videogörüş keçirib



Avqustun 7-də Təhsil naziri Emin Əmrullayev ali təhsil müəssisələrinin rəhbərləri ilə videogörüş keçirib.

Videogörüşdə Təhsil naziri Emin Əmrullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ali təhsil müəssisələri ilə bağlı qarşıya qoyulan tapşırıqlara xüsusi diqqət çəkib.

Bildirilib ki, təhsilimizin əsas fəaliyyət istiqamətləri ölkəmizin sənaye və iqtisadi inkişafı ilə tam bağlı olmalıdır. Ali təhsil müəssisələri tərəfindən ehtiyac duyulan sahələr üzrə mütəxəssislərin hazırlığının vacibliyinə, müasir dövrün yeni ixtisaslarına diqqət yetirilməli və gələcəkdə müxtəlif peşələr üzrə yaranması proqnozlaşdırılan ehtiyaclar dərindən təhlil edilməlidir.

Nazir həmçinin vurğulayıb ki, ölkəmizdə mütəxəssis hazırlığı Dördüncü Sənaye İnqilabının tələbləri, rəqəmsallaşma, müasir texnologiyaların geniş yayılması ilə ayaqlaşmalı və rəqabətqabiliyyətli kadrların hazırlığına xüsusi diqqət artırılmalıdır.

Görüşdə, eyni zamanda, dayanıqlı və şəffaf keyfiyyət təminatı proseslərinin qeyd olunan hədəflərə nail olunmasında xüsusi rolu vurğulanıb və geniş ictimaiyyətin bu prosesə cəlb olunmasının əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb. Bundan əlavə, ölkə başçısının müvafiq Fərmanı ilə keçən ilin sonunda yaradılmış Təhsildə Keyfiyyət Təminatı Agentliyinin bu prosesdə təhsil müəssisələrinə zəruri dəstək göstərəcəyi bildirilib.

Görüşdə ali təhsil müəssisələrində pandemiya şəraitində yeni tədris ili üçün nəzərdə tutulan işlərlə bağlı bir sıra məsələlər də müzakirə edilib və təkliflər dinlənilib.

# "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın, "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 568; 2012, № 4, maddə 388, № 5, maddə 492; 2013, № 3, maddə 331, № 8, maddə 1003; 2015, № 6, maddə 787; 2016, № 3, maddə 620; 2017, № 2, maddə 289, № 3, maddə 492, № 9, maddə 1735; 2018, № 2, maddə 359; 2019, № 3, maddə 537, № 5, maddə 951; 2020, № 1, maddə 82) ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** "1. Təhsil ixtisasları qrupu" bölməsinin "060119 Pedaqogika" ixtisasına "- Təhsildə qiymətləndirmə və monitorinq" sətrindən sonra "- Təlim və tədrisin təşkili və metodikası" sətri əlavə edilsin.

**2.** "2. Humanitar və sosial ixtisaslar qrupu" bölməsinin "060212 Hüquqşünaslıq" ixtisasına "- Turizm hüququ" sətrindən sonra "- Beynəlxalq iqtisadi hüquq" sətri əlavə edilsin.

**3.** "3. Mədəniyyət və incəsənət ixtisasları qrupu" bölməsinin "060308 Xoreoqrafiya sənəti" ixtisasına "- Rəqs sənəti üzrə müəllim-tədqiqatçı" sətrindən sonra "- Xoreoqrafiya sənəti (sahələr üzrə)" sətri əlavə edilsin.

**4.** "5. Təbiət ixtisasları qrupu" bölməsinin "060509 Kompüter elmləri" ixtisasına "- Rəqəmsal hökumət" sətrindən sonra "- Verilənlərin təhlili (Data analitikası)" və "- Mobil tətbiqlərin hazırlanması və oyun dizaynı" sətirləri əlavə edilsin.

**5.** "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsinin "060623 Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi" ixtisasına "- Şəhər nəqliyyat şəbəkəsi və nəqliyyat xidmətinin təşkili" sətrindən sonra "- Nəqliyyat xidmətləri üçün böhran və risklərin idarə edilməsi" sətri əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 8 avqust 2020-ci il*

# Ölkə üzrə yüksək bal toplayan məzunlar

Dövlət İmtahan Mərkəzinin buraxılış imtahanlarında ölkə üzrə ən yüksək bal toplamış məzunların adları məlum olub. Abşeron rayonu Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin məzunu Balaqız Orucova və Lənkəran şəhər 10 nömrəli tam orta məktəbin ötənilki məzunu Mirənvər İsmayılzadə 11 siniflər üzrə buraxılış imtahanlarından maksimum nəticə göstərərək 300 bal toplayıblar.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil məktəblərinin bir sıra məzunları da buraxılış imtahanlarında yüksək nəticə göstəriblər.

Belə ki, iyulun 23-ü və 24-də keçirilmiş buraxılış imtahanlarının (XI sinif üzrə) nəticələrinə əsasən, BŞTİ-nin tabeliyindəki 70 nömrəli məktəb-liseyin məzunu Ağakərimova Aydan Şahbala qızı, 213 nömrəli məktəb-liseyin məzunu Qardaşəliyeva İlahə Şahgül qızı, 229 nömrəli tam orta məktəbin məzunu Rəfiyeva Nəzrin Bənamil qızı, 247 nömrəli tam orta məktəbin məzunu Mirzəyeva Günay Şaiq qızı, 271 nömrəli tam orta məktəbin məzunu Məhərrəmli Nərgiz Eldar qızı və 305 nömrəli tam orta məktəbin məzunu Lalayev Fərid Cəmil oğlu 297 bal toplayıblar.

Yüksək nəticə göstərən abituriyentləri təbrik edir, bütün məzunlara uğurlar arzulayırıq.

# Təhsil naziri İƏT-in Təhsil İnstitutunun Himayəçilər Şurasının iclasında iştirak edib






Avqustun 12-də Təhsil naziri Emin Əmrullayev İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təhsil İnstitutunun Himayəçilər Şurasının videokonfrans formatında keçirilən üçüncü iclasında iştirak edib. Tədbirdə Türkiyənin Milli Təhsil naziri Ziya Selçuk, İƏT-in Baş katibi Hadi Suleymanpur, İranın Təhsil naziri Mohsen Hacı Mirzae, Pakistanın Federal Təhsil və Peşə Təlimi naziri Şəfqət Mahmud və digər yüksək səviyyəli nümayəndələr iştirak ediblər.

İclas zamanı çıxış edən Emin Əmrullayev "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq aparılan islahatlar və onların müsbət nəticələri barədə məlumat verib. Nazir həmçinin koronavirus pandemiyası ilə mübarizə çərçivəsində ölkəmizdə təhsilin davamiyyətinin təmin edilməsi məqsədilə atılan addımlar haqqında tədbir iştirakçılarını məlumatlandırıb. Emin Əmrullayev İƏT-ə üzv dövlətlərlə təhsil sahəsində əməkdaşlığın cari vəziyyətinə və perspektivlərinə də toxunub.

Tədbirdə Təhsil İnstitutunun fəaliyyətinin gücləndirilməsi məqsədilə 2020-2022-ci illər üçün İş planı qəbul olunub.

# Şəhadətnamələrin fiziki olaraq vətəndaşlara təqdim edilməsinə başlanılıb

Avqustun 12-dən etibarən vətəndaşlara göstərilən xidmətin keyfiyyətinin artırılması məqsədilə şəhadətnamələrin fiziki olaraq təqdim edilməsi prosesinə başlanılıb.

Vətəndaşlar karantin rejiminin tələblərinə riayət etməklə həftəiçi hər gün saat 09:00-18:00 arası tərtib olunmuş xüsusi növbəlilik cədvəli üzrə onlara göndəriləcək müvafiq SMS bildirişi əsasında Təhsildə Keyfiyyət Təminatı Agentliyinə yaxınlaşaraq şəhadətnamələrini əldə edə bilərlər. Şəhadətnamələrin təqdim olunması prosesinin 15 iş günü ərzində yekunlaşdırılması planlaşdırılır.

Nəzərinizə çatdıraq ki, bu xidmət mart 2020-ci il tarixindən başlayaraq ardıcıl şəkildə digər aylar üzrə şəxsi kabinetində "Şəhadətnamə verildi" statusu qeyd olunan müraciətçilərə şamil edilir. SMS bildirişi almayan vətəndaşların Agentliyə yaxınlaşmamaları xahiş olunur.

Qeyd edək ki, ölkə ərazisində xüsusi karantin rejimi ilə əlaqədar Təhsildə Keyfiyyət Təminatı Agentliyində vətəndaşların qəbulu 16 mart 2020-ci il tarixindən 31 avqust 2020-ci il tarixinədək dayandırılıb. Bu səbəbdən xarici ali təhsil ixtisaslarının tanınması və ekvivalentliyinin (nostrifikasiyası) müəyyən edilməsi ilə bağlı Agentliyə müraciət edən və müsbət nəticə əldə edən vətəndaşlara şəhadətnamələrin fiziki olaraq təqdim edilməsi mümkün olmamışdır.

# Müəllim olmaq istəyənlər üçün

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

**Daha bir dəyişiklik...**

*Murad Camalzadə:* "Test imtahanları başa çatdıqdan sonra hər bir namizəd öz nəticələri ilə ətraflı tanış ola biləcək"

M.Camalzadə qeyd edib ki, bu il test imtahanları ilə bağlı daha bir dəyişiklik həyata keçirilib. Belə ki, test imtahanlarının tərkibində 60 sual vardır. Bu il suallar toplusundan məntiqə dair suallar çıxarılıb ki, bu da vacib dəyişikliklərdən biridir. Beləliklə də namizədlərə 40 ixtisas və metodikaya dair 20 sual təqdim ediləcək. Bu il Təhsil Nazirliyi tərəfindən həyata keçirilən ən vacib dəyişikliklərdən biri test imtahanları başa çatdıqdan sonra hər bir namizədin öz imtahan nəticələri ilə tanış olmaq imkanı əldə etməsi ilə bağlıdır. M.Camalzadə vurğulayıb ki, əvvəlki illərdə namizədlər imtahan bitdikdə yalnız ümumi nəticəni, yəni neçə bal topladığını, hər bölmə üzrə topladığı balların sayını öyrənə bilirdi. Ancaq hansı suala səhv cavab verdiyini, səhv cavablandırdığını görə bilmirdi. Namizəd hansı sualda səhv etdiyini bilmək istəyirdi. Ona görə də əlavə apelyasiya mərhələsinə müraciət etməyə məcbur olurdu.

Nazirlik rəsmisi əlavə edib ki, builki dəyişikliyə əsasən imtahan bitdikdən sonra hər bir namizədə imtahan zalını tərk etməzdən əvvəl 10 dəqiqə vaxt veriləcək. Namizədin imtahan verdiyi kompüterdə səhv cavablandırdığı suallar onların özlərinə təqdim ediləcək. Bu da Təhsil Nazirliyi tərəfindən keçirilən ən vacib dəyişikliklərdən biridir ki, namizədlər səhv cavablandırdıqları suallarla da tanış ola bilsinlər.

**Maskadan istifadə məcburidir**

M.Camalzadə imtahanların zəruri sanitar-epidemioloji tələblərə əməl olunması şəraitində keçiriləcəyini bildirib. İmtahanlar ərəfəsində TƏBİB ərazi bölmələrinin metodiki göstərişinə əsasən müvafiq tənzimləmə işləri davam etdirilir. Belə ki, mütəmadi olaraq imtahan keçirilən binaların dezinfeksiya işləri həyata keçirilir, eyni zamanda hər imtahan seansı başa çatdıqdan sonra imtahan zalında namizədin əyləşdiyi masanın, təmasda olduğu yerlərin dezinfeksiya məhlulları ilə təmizlənməsi təmin ediləcək. İmtahan binasına girərkən namizədlərin hərarəti ölçüləcək, imtahana yalnız hərarəti 37 dərəcədən aşağı olanlar buraxılacaq. Namizədlərin imtahana maskada gəlməsi də vacib şərtdir, çünki maska ilə gəlməyənlər, ümumiyyətlə, imtahana buraxılmayacaq. İmtahan prosesi boyunca da maskadan istifadə etmək məcburidir. Namizədlər imtahana gələrkən tibbi əlcəklərlə də təmin ediləcək.

# Təhsil naziri Türkiyə və Rusiya səfirləri ilə görüşüb





## Təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib

Avqustun 12-də Təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Avqustun 12-də Təhsil naziri Emin Əmrullayev Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

# YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyası Beynəlxalq Gənclər Günü münasibətilə videokonfrans təşkil edib




YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının təşəbbüsü və təşkilatçılığı ilə 12 avqust - Beynəlxalq Gənclər Gününə həsr olunmuş videokonfrans keçirilib.

Tədbirdə Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Milli Komissiyanın baş katibi Elnur Sultanov çıxış edərək bu il Beynəlxalq Gənclər Gününün “Qlobal fəaliyyət üçün gənclərin cəlb edilməsi” mövzusuna həsr olunduğunu və bu günün YUNESKO üzrə milli komissiyalar tərəfindən qeyd olunmasının təşkilatın dəyərlərinin təşviqində gənclərin rolunun vacibliyi barədə məlumatlılığı artırmağa xidmət etdiyini vurğulayıb. Elnur Sultanov ölkəmizdə həyata keçirilən gənclər siyasətindən bəhs edərək, gənclərin YUNESKO-nun prioritetlərindən olduğunu bildirib və bu sahədə qəbul olunmuş mühüm proqramlar barədə məlumat verib.

Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev də çıxış edərək ölkəmizdə həyata keçirilən gənclər siyasətinin tarixi, cari vəziyyəti və perspektivlərindən bəhs edib.

Təhsil nazirinin müavini Firudin Qurbanov gənclərin təhsili ilə bağlı görülən işlər, bu sahədə həyata keçirilən dövlət proqramları və YUNESKO ilə əməkdaşlıq barədə məlumat verib, gənclərdə sülh mədəniyyəti, dözümlülük, multikulturalizm dəyərlərinin aşılanmasına əsaslanan təhsilin vacibliyini vurğulayıb. Nazir müavini bildirib ki, Azərbaycan Respublikası gənclər siyasətində yüksək dövlət fəallığı ilə xarakterizə olunur. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir. Firudin Qurbanovun sözlərinə görə, YUNESKO və Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi müstəsna əhəmiyyətə malikdir. Azərbaycanın təhsil siyasətində gənc nəslə tolerantlıq, ümumbəşəri və milli-mədəni dəyərlərə hörmət aşılanması əsas yer tutur.

Nazir müavini deyib ki, pandemiya dövründə gənclər siyasəti və onların təhsili dövlətimizin diqqət mərkəzindədir. Gənclər pandemiyanın sosial-iqtisadi təsirlərinə baxmayaraq, pandemiyaya qarşı qlobal reaksiyalarda fəallıq nümayiş etdirirlər. Onlar yalnız tibb işçiləri kimi deyil, həm də tədqiqatçı, könüllü, yenilikçi və kommunikator kimi rollarda sağlamlıq və təhlükəsizliyin keşiyində dururlar. Pandemiya və postpandemiya dövründə gənclərin rolunun, biliklərinin, araşdırma qabiliyyətlərinin artırılması və müxtəlif sahələrdə qlobal fəaliyyətə cəlb edilməsi bizim əsas məqsədlərimizdən biridir.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva yaradıcı sahələrdə gənclərin təşviq edilməsi ilə bağlı layihələr, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən gənclər üçün yaradılan imkanlardan, eləcə də musiqi, teatr, kinematoqrafiya sahəsində gənclərin əldə etdiyi uğurlardan bəhs edib, iqtisadi inkişafa töhfə verə bilən yaradıcı gənc nəslin formalaşması və birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə gənclərin informasiyaya çıxışının təmin edilməsi, onların texnoloji biliklərə yiyələnməsi, informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi, rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi, innovativ ideyalarının reallaşdırılmasına dəstək məqsədilə həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov gənclər siyasəti sahəsində ölkəmizdə əldə edilmiş uğurlar, səmərəli dövlət idarəçiliyi və inklüziv inkişafda gənclərin rolundan danışıb.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov isə gənclər təşkilatlarının iştirakı ilə reallaşdırılan layihələr, eləcə də gənclərin xaricdə təhsilinə Fond tərəfindən göstərilən dəstək barədə məlumat verib, gənclərin ölkə daxilində və beynəlxalq səviyyədə iştirakının təşviq edilməsinin əhəmiyyətini, beynəlxalq təşkilatlarda təcrübə keçmələrinin vacibliyini vurğulayıb, gəncləri qabaqcıl təcrübələrin tətbiqi, ölkəmiz barədə həqiqətlərin təbliği, saxta məlumatların yayılmasının qarşısının alınmasında aktiv olmağa çağırıb.

Azərbaycan YUNESKO Klublarının koordinatoru Cahangir Hacıyev ölkəmizdə bu klubların fəaliyyəti, Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova və Azərbaycan Tələbə-Gənclər Təşkilatı İttifaqının sədri Faiq Məmmədov müasir Azərbaycan gənclərinin fəaliyyəti, onlar tərəfindən həyata keçirilən layihələr və gələcək planlardan bəhs edib.

Sonda səsləndirilmiş təkliflər və təşəbbüslərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

# Peşə seçmək vaxtıdır

## Buraxılış imtahanı verməyənlər də qeydiyyatdan keçə bilər

**Ruhiyyə DAŞSALAHLI**

2020-2021-ci tədris ilində peşə təhsil müəssisələrinə tələbə qəbulu elan edilib. Bu il üçün 18 min 260 yer ayrılıb. Ayrılan yerlərdə 11 min 40 nəfər dövlət büdcəsi hesabına, 7 min 220 nəfər isə ödənişli əsaslarla təhsil alacaq. Peşə təhsili almaq istəyənlərə 66 peşə təhsili müəssisəsində 120 ixtisasdan biri üzrə təhsil almaq imkanı yaradılıb.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Pərviz Yusifovun sözlərinə görə, ilk dəfə olaraq tələbə qəbulu prosesində işəgötürənlərlə birgə ikili proqramlar tətbiq olunacaq. İkili proqramların tətbiq edildiyi ixtisaslar, əsasən turizmlə bağlı olsa da, kənd təsərrüfatı və başqa sahələr üzrə də olanlar var. O bildirib ki, “Peşə təhsili haqqında” Qanuna əsasən peşə təhsili müəssisələrində yüksək texniki (subbakalavr dərəcəsi) səviyyəsi üzrə tələbə qəbulunun aparılması nəzərdə tutulur. Növbəti tədris ilindən 2 peşə təhsil mərkəzində yüksək texniki peşə səviyyəsi, subbakalavr dərəcəsi üzrə tələbə qəbulunun aparılması reallaşacaq.

### Onlara peşə məktəbində pulsuz oxumaq şansı verilir

P.Yusifov peşə təhsili müəssisələrində hətta ödənişli ixtisaslara qəbul olunsa belə, dövlətin pulsuz oxumaq şansı verdiyi kateqoriyadan da bəhs edib. Onun sözlərinə görə, valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar və şəhid ailəsinin üzvləri peşə təhsili müəssisələrində pulsuz oxuya biləcəklər. Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktorunun sözlərinə görə, dövlətin ödənişsiz təhsil almaq imkanı yaratdığı şəxslər bununla məhdudlaşmır. Belə ki, I, II və III dərəcə əlilliyi olanlar və 20 yaşına çatmamış və I dərəcə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslərin də peşə təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqları dövlət büdcəsi hesabına ödəniləcək. Ünvanlı dövlət sosial yardımı alanların, hər iki valideyni (tək valideyni olduqda həmin şəxs) və ya qanuni nümayəndələri I və II dərəcə əlilliyi olan şəxslər, işsiz kimi qeydiyyatda olan tələbələrin, yaşa görə əmək pensiyaçıları və yaşa görə sosial müavinət alanların təhsil haqqının yarısı da dövlət büdcəsinin vəsaiti hesabına olacaq.

### Qəbul mərkəzləşdirilmiş qaydada aparılır

Bu ildən peşə təhsili müəssisələrinə qəbul qaydası da dəyişib. Artıq qəbul prosesi mərkəzləşmiş sistem əsasında həyata keçirilir. Belə ki, peşə təhsili müəssisələrinə qəbul olmaq istəyənlərin “ASAN Xidmət” mərkəzlərinə üz tutmasına gərək yoxdur. Müraciət etmək istəyənlər *qəbul.vet.edu.az* platforması üzərindən ödənişsiz qaydada qeydiyyatdan keçirlər.

Xatırladaq ki, peşə təhsili müəssisələrinə qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında aparılır.

### Tanımadığı ixtisası seçməsinlər deyə...

“ASAN Xidmət” mərkəzlərində fəaliyyət göstərən könüllülər müraciət edənlərə ixtisas seçimində və ixtisaslarla bağlı məlumatlanmaqda kömək edirdilər. Maraqlıdır, mərkəzləşdirilmiş qaydada müraciətin tətbiqi peşə təhsili müəssisələrində seçdiyi ixtisasdan xəbərsiz olanların sayının artmasına səbəb olmayacaqmı?

PTDA-nın baş məsləhətçisi Röyal Yolçuzadənin sözlərinə görə, artıq müraciət edənlər agentliyin saytında bütün ixtisaslar və müəssisələr barədə məlumat ala bilərlər. Bu da namizədlərin işini asanlaşdırır və onların evdən çıxmasına ehtiyac qalmır. Hər hansı ixtisasla bağlı qaranlıq qalan məsələ olarsa, müraciət etmək istəyənlər 146 nömrəli qaynar xəttlə əlaqə saxlayıb istənilən ixtisasla bağlı olmaqla, onu maraqlandıran istənilən sualına cavab tapa bilər.

### Hələ attestatı olmayanlar da qeydiyyatdan keçə bilər

Kimin müraciət edə biləcəyinə gəlincə, peşə təhsili müəssisələrinə ümumi və ya tam orta təhsil bazasını tamamlamış istənilən şəxs müraciət edə bilər: “Qeydiyyatdan keçənlərin ərizələrindəki məlumatların doğruluğu yoxlanıldıqdan sonra müraciət edənlərin ixtisaslar üzrə seçimi sistem tərəfindən təsdiqlənir”.

Qəbul prosesində hər namizəd maksimum 5 ixtisas seçir. Həmin ixtisaslar tamamilə fərqli sahələri də əhatə edə bilər. Müraciətlərin emalı prosesində üstünlük ilk yazılan ixtisaslara verilir və yerləşdirmə bu sıralamaya uyğun olaraq həyata keçirilir.

R.Yolçuzadə onu da qeyd edib ki, müsabiqədə iştirak edənlərə müraciətin nəticəsi barədə SMS vasitəsilə məlumat verilməsi nəzərdə tutulub.

Baş məsləhətçi buraxılış imtahanı vermədiyi üçün hələ attestat almayanlara da çıxış yolu təklif edib: “Həmin şəxslər oxuduqları məktəbdən attestat imtahanını növbəti mərhələdə verəcəyi barədə sənəd və 10 fənn barədə qiymət cədvəlini almalıdır. Qeydiyyat zamanı bu sənədlərdən istifadə edə bilərlər”.

R.Yolçuzadə xəbərdarlıq edib ki, müraciət edənlərə bitirdiyi təhsil səviyyəsinə uyğun ixtisaslar təklif olunacaq. Yəni 9 və 11-ci siniflərə uyğun ixtisaslar göstəriləcək. Buna görə də müraciətçilərdən məlumatları doğru qeyd etmələri tələb olunur.

Xatirladaq ki, elektron qeydiyyat avqustun 24-dək davam edəcək. Qeydiyyat başa çatdıqdan sonra müsabiqənin nəticəsi barədə namizədlərə SMS məlumat göndəriləcək. Boş qalan yerlər olarsa, sentyabrın əvvəlində ikinci mərhələ elan olunacaq.

# Məktəblilər və müəllimlər üçün maarifləndirmə proqramı

## "Su ehtiyatlarından səmərəli istifadə" mövzusunda vebinarların ilkin mərhələsinə yekun vurulub



2020-ci ilin iyul-avqust aylarında Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP), Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişafı Mərkəzinin (RUGİM) birgə təşkilatçılığı ilə "Su ehtiyatlarından səmərəli istifadə" mövzusunda məktəblilər və müəllimlər üçün onlayn platformada maarifləndirmə proqramı həyata keçirilib.



18 iyul tarixində start verilən proqram çərçivəsində avqustun 8-də keçirilən ilkin mərhələnin yekununda BMTİP-nin Rezident nümayəndəsinin müavini Çaru Bist, Təhsil nazirinin müavini Firudin Qurbanov, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov mövzu ilə bağlı çıxış ediblər.

Vebinarda hər iki nazirliyin nümayəndəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin su problemlərinin aradan qaldırılması, su ehtiyatlarından səmərəli istifadəni təmin etmək üçün əlavə tədbirlər haqqında müvafiq sərəncamını və bu sahədə müəyyənləşdirilmiş 2020-2022-ci illər üçün Tədbirlər Planı haqda məlumatları diqqətə çatdırıblar.

Tədbirdə açılış nitqi ilə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov həyatın özünün və insanın bütün təsərrüfat fəaliyyətinin su ehtiyatlarının istifadəsi ilə qırılmaz əlaqədə olduğunu, bütün canlı orqanizmlərin yaşaması üçün suyun əvəzedilməz şərt olaraq böyük rol oynadığını qeyd edib. Suyun səmərəli istifadə ilə davamlı inkişafa dəstək verərək eyni zamanda ciddi qlobal risklərdən qoruyan əsas faktor olduğunu bildirən Firudin Qurbanov çıxışında "Su ehtiyatlarından səmərəli istifadə" mövzusunda məktəblilər və müəllimlər üçün keçirilən vebinarların dövlət başçısının son sərəncamlarına əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyinin BMTİP ilə keçirilməsinin vacibliyini qeyd edib. Nazir müavini çıxışının sonunda Təhsil Nazirliyi adından göstərilən dəstəyə görə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, BMTİP-na təşəkkürünü bildirib və bütün iştirakçılara gələcək fəaliyyətlərində uğurlar diləyərək, bundan sonra da ölkəmizdə ətraf mühitin, su ehtiyatlarının qorunmasında gənc nəslin daha aktiv iştirak etməyini tövsiyə edib.

Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov dünyada şirin su ehtiyatlarının azaldığını və bunun başlıca səbəbinin qlobal iqlim dəyişikliyi olduğunu deyib. Vüqar Kərimov qeyd edib ki, Azərbaycan azsulu ölkələr sırasındadır və su çatışmazlığı problemi ölkəmizdən də yan keçmir. Respublikamızın su ehtiyatlarının 70 faizi ölkəmizdən kənarda formalaşır və Azərbaycana Kür, Araz, Samur kimi çaylarla tranzit olunur. Son 8 ildə müşahidə olunan davamlı quraqlıq su ehtiyatlarımızın azalmasına səbəb olub. Buna görə də su ehtiyatlarından səmərəli istifadə, onun ədalətli bölgüsünün, uçotunun aparılması istifadəsinə nəzarətin gücləndirilməsi zəruridir. Nazirliyin rəsmisi ölkəmizdə suya qənaət edilməsi istiqamətində görülən işlərdən bəhs edib, gələcəkdə ciddi su qıtlığı problemi ilə üzləşməmək üçün hər kəsi sudan səmərəli və qənaətlə istifadəyə çağırıb.

BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsinin müavini Çaru Bist tədbirdə çıxış edərək bütün dünyada 844 milyon insanın təmiz su çatışmazlığından əziyyət çəkdiyini, 600 milyon uşağın isə təmiz suya çıxışının çox zəif olduğu ərazidə yaşadığını bildirib. O, beynəlxalq təcrübəyə əsasən bəzi ölkələrin su qıtlığı probleminə müxtəlif sektorlar üzrə su resurslarının səmərəli idarə olunması yolu ilə nail olunduğuna diqqət çəkib. Çaru Bist həmçinin bu gün gənclərin dünyada müsbət dəyişikliklərin əsas hərəkətverici qüvvəsi olduğunu vurğulayıb. Çıxışında gənclərin məlumatlılığının artırılmasında, maarifləndirmə proqramlarının həyata keçirilməsində, təbiətin qorunması, eləcə də bərpa olunan enerjinin təbliğ edilməsi və ekoloji cəhətdən təmiz təcrübənin mənimsənilməsi üçün yerli, milli və qlobal səviyyədə fəal iştirak etdiklərini qeyd edib.

Onlayn tədbirlərdə "Su probleminin yaranma səbəbləri", "İqlim dəyişmələrinin su ehtiyatlarına təsiri", "Maarifləndirmə: amalımız - sudan qənaətlə istifadədir!", "Su problemi və gender", "Sudan səmərəli istifadə, həyata keçirilən layihələr" və digər mövzularda Ekologiya və Təbii Sərvətlər Nazirliyindən Umayra Tağıyeva, Faiq Mütəllimov, Rafiq Verdiyev, İradə İbrahimova, su problemləri üzrə müstəqil ekspert Rövşən Abbasov, KİV nümayəndəsi Orxan Kərimov, Gender eksperti Xalisə Şahverdiyeva, BMT İP baş proqram müşaviri Çingiz Məmmədov, "BMT-nin İqlim dəyişmələri üzrə konvensiyasına Dördüncü Milli Məlumatın hazırlanmasına texniki yardım" layihə assistenti Elanə Əlizadə və Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultan-zadə çıxış ediblər.

Qeyd olunub ki, proqramın əsas məqsədi dünyada, o cümlədən Azərbaycanda da mövcud olan su problemləri, insan həyatı və sağlamlığı, öncəliklə də uşaqların həyatı və sağlamlığının mühafizəsi üçün ən əhəmiyyətli məsələlərdən biri olan təmiz su və onun istifadəsi, iqlim dəyişmələrinin su ehtiyatlarına təsiri, sudan istifadə sahəsində yeni qənaətcil texnologiyaların tətbiqi və su itkilərinin qarşısının alınmasında məktəblilərin məlumatlandırılması və maarifləndirilməsi, həmçinin müəllim və metodistlərin bu istiqamətdə biliklərinin artırılmasıdır. Hər şənbə günü iki saat ərzində mütəxəssis hidroloqların, ekoloqların, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aparıcı əməkdaşlarının, RUGİM-in mütəxəssislərinin, jurnalistlərin, ekoloji QHT nümayəndələrinin iştirakı ilə məlumatlandırıcı onlayn vebinarlar təşkil olunub, uşaq və gənc auditoriya və müəllimlər üçün təqdimatlar, interaktiv sorğular hazırlanıb, animasiya filmləri və sosial videoçarxlar nümayiş etdirilib, sual və cavablar üçün vaxt ayrılıb, məktəblər və ev təsərrüfatları üçün pilot layihələr məsələləri müzakirə edilib. Vebinarlar 300 iştirakçıdan ibarət bir qrupda onlayn olaraq keçirilib və sosial şəbəkələrdə canlı yayımlanaraq, hər bir maraqlanan uşaq və böyüklər onlayn yayımlara qoşulmaq, suallarını vermək və ya bir mütəxəssisə qulaq asmaq üçün linki əldə edə biliblər. Proqrama məktəblilərlə yanaşı, respublikanın 50-dən çox rayon mərkəzi də qoşulub.

Ekoloji təhsilin Yer kürəsində davamlı inkişafa nail olmaq, ətraf mühitə təsiri azaltmaq üçün vacib amillərdən olduğunu bildirən nazirlik rəsmiləri bu tədbirin uşaq və gənclərin ekoloji tərbiyəsinin formalaşmasına, faydalı təcrübənin öyrənilməsinə töhfə verəcəyini qeyd ediblər.

Bu məsələyə böyük maraq və gənc nəsil arasında maarifləndirmə işinin əhəmiyyəti nəzərə alınaraq, layihəni planlaşdırıldığı kimi 4 məlumat sessiyası ilə başa çatdırmamaq, sentyabr ayına qədər vebinarları davam etdirmək və maarifləndirici məlumat işləri üçün gələcək iş planını hazırlamaq qərara alınıb.

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin orta ixtisas və ali təhsilə dəstəyi

## Ümumi məlumat

10 milyon əhalisi olan Azərbaycanda ümumilikdə 56 orta ixtisas və 52 ali təhsil müəssisəsində 211716 tələbə əyani formada təhsil alır. Bu təhsil müəssisələrində 20514 nəfər pedaqoji heyət çalışır. 2020-ci ilin martın 3-də yeni növ koronavirus (COVID-19) pandemiyasının yayılması səbəbi ilə ölkədə rəsmi karantin rejimi elan edildikdən sonra bütün təhsil müəssisələri bağlandı.

Ölkənin ali təhsil müəssisələrində əyani formada təhsil alan təxminən 40089 tələbə sonuncu tədris ilini fərdi kurs işləri formasında başa vurdu. 171627 tələbə və 20514 nəfər pedaqoji heyət isə məsafədən təhsilə cəlb edildi. Bunun üçün ölkədə fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin bir çoxu məsafədən təhsilə qoşulmaq məqsədi ilə gərəkli rəqəmsal təchizat və hazırlıq işləri gördülər.

### Ödənişsiz onlayn öyrənmə və əməkdaşlığın idarə edilməsi sistemi

Təhsil Nazirliyi sosial məsafə problemini və onun təhsilə olan təsirlərini azaltmaq üçün bu ilin martın 12-dən başlayaraq təhsil müəssisələrini ödənişsiz onlayn əməkdaşlıq və öyrənməni idarəetmə sistemi ilə təmin etmək təşəbbüsünə start verdi. Belə ki, Təhsil Nazirliyinin və onun uzunmüddətli əməkdaşlıq üçün tərəfdaşı olan "Microsoft" şirkətinin birgə dəstəyi ilə təhsil müəssisələri "Microsoft Teams" proqramının quraşdırılması, istifadəçilərin qeydiyyatı, texniki dəstək və metodik vəsaitlərlə təmin olundular.

Layihənin həyata keçirilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün Təhsil Nazirliyinin tabeliyindəki qurumlar və Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi birlikdə işçi qrup yaradıb.

Təhsil Nazirliyi "Microsoft Teams" platformasının qeydiyyatı üçün təhsil müəssisələrinə dəstək göstərməklə bərabər, eyni zamanda müəllim-şagird və dərs bölgüsünü, müəllimlər və texniki heyət üzvləri üçün Azərbaycan dilində təlim vəsaitlərini təmin etmişdir. Beləliklə, təhsil müəssisələri "Microsoft Teams" platforması da daxil olmaqla bütün bu imkanlardan ödənişsiz yararlanıblar.

"Microsoft Teams" platforması sərt karantin dövründə tələbələrin kurs işlərinin təqdim edilməsinə və təhsil prosesinin fasiləsiz, səmərəli, təhlükəsiz və məsafədən təşkil olunmasına əhəmiyyətli dərəcədə kömək edib.

### Səmərəlilik

Onu da qeyd edək ki, "Microsoft Teams" platforması geniş həcmdə funksiyalar təqdim edir. Belə ki, burada onlayn təqvimdən istifadə etməklə dərs və mühazirələrin cədvəlini müəyyənləşdirmək, kurs materiallarının bölüşdürülməsi (tədris proqramları, mühazirələr, tapşırıqlar və s.), tədris materiallarının yüklənib saxlana bilməsi, qrup və fərdi işlərin təsdiq edilməsi, müəllim və şagirdlərin qarşılıqlı əlaqələrinin qurulması, müzakirələrin təşkili və s. işləri həyata keçirmək imkanları var. Sistemin əsas üstünlüyü isə yalnız qeydiyyatdan keçmiş insanların istifadə etməsidir ki, bu da təhlükəsiz formada məsafədən təhsil mühitinin yaradılmasını təmin edir.

Təhsil Nazirliyi həmçinin onlayn qiymətləndirmə funksiyasının sistemə inteqrasiya olunması imkanlarını da nəzərdən keçirir.

Məlumdur ki, təhsil prosesində yarana biləcək hər hansı bir ləngimə əlavə xərclərə ehtiyac yarada və dövlət büdcəsindən əlavə vəsaitin xərclənməsinə gətirib çıxara bilər. Məhz Təhsil Nazirliyinin vaxtında müdaxiləsi nəticəsində bu gün 39 ali və orta ixtisas təhsili müəssisəsi məsafədən təhsil platformalarına – imkanlarına sahibdir. Onlardan 35-i "Microsoft Teams" platformasından istifadə edir. 110 mindən çox tələbə və müəllim adıçəkilən platformanın aktiv istifadəçisidir. Təhsil Nazirliyi tərəfindən həmin təhsil müəssisələrinə təqdim edilən bu xidmətlər dərslərin ləngimə olmadan keçirilməsini və biliklərin bölüşülməsini, eyni zamanda milli qiymətləndirmə meyarlarına uyğun olaraq illik qiymətləndirmələrin aparılmasını uğurla təmin edir.



Ministry of Education
Republic of Azerbaijan

Azerbaijan Ministry of Education's Intervention in Secondary Professional and Higher Education





Background

Azerbaijan, a country with a population of 10 million, has in total 211,716 full-time students and 20,514 educators teaching in 56 secondary professional education and 52 higher education institutions. As the country was hit with COVID-19 pandemic, a national quarantine was announced on March 3 that resulted in closure of all educational institutions.

While around 40,089 full-time students in higher education institutions were completing their final year and involved in independent coursework, the remaining 171,627 students and 20,514 educators were in need of distance education. Only two out of 52 universities and no secondary professional education institutions possessed solid distance learning arrangements that included a relevant software solution, trained faculty, and digital content.



Free online collaboration and learning management system

To mitigate the challenge of social distancing and its effects on education, Ministry of Education launched an initiative to provide educational institutions with a free online collaboration and learning management system beginning March 12. Ministry of Education and its long-term partner, Microsoft joint forces to offer the educational institutions Microsoft Teams solution, its deployment, users registration, technical support, and methodological backing. A dedicated entity under the Ministry of Education, the Bureau on ICT for Education, established a team for implementation and rapid expansion of the project.

The Ministry of Education supported Microsoft Teams registration for each institution, deployed student/teacher registration and class creation, supplied technical staff with necessary guidance, and developed teacher training materials in Azerbaijani. Educational institutions could benefit from all of these services including Microsoft Teams platform free of charge. Microsoft Teams platform helped to continue the implementation of coursework during the lockdown period and organize effective, secure, and remote educational process.



Benefits

Microsoft Teams platform provides a wide range of functionalities: schedule lessons and online lectures using a calendar, share course materials (i.e., syllabus, lectures, assignments), record and store large volumes of learning materials, submit group work and post grades, organize teacher-student interaction, create discussions, etc. The main advantage of the system is its limited access for people apart institution, which ensures secure e-learning environment. The Ministry of Education looks into proctoring and online examination function to be integrated into the platform.

Any major delay in the education process could result in potential necessity to allocate substantial additional resources from the Government. As a result of the Ministry of Education's timely intervention, 39 secondary professional education and higher education institutions currently possess platforms for distance education. Thirty-five of them are using Microsoft Teams. Over 110,000 students and teachers are among active users. The services offered by the Ministry of Education enabled these institutions to deliver courses and share knowledge without delay and plan year-end assessment in accordance with the national curriculum.


Aysel Əlizadə


Famıl Ağayev


Nəzrin Qasımzadə

Ruhiyyə DAŞSALAHLI

# Müəllimliyə seçilənlər

## MİQ-də yüksək bal toplayan müəllimlərin uğur hekayələri

Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsinə start verilib. Test imtahanı mərhələsində 46228 namizədin iştirakı nəzərdə tutulub. Xatırladaq ki, 2009-2010-cu tədris ilindən Bakı şəhərinin, 2010-2011-ci dərs ilindən isə respublikanın ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulunun müsabiqə yolu ilə aparılmasına başlanılıb. Müsabiqənin yüksək nüfuz qazanması və namizədlərin yüksək fəallığının müşahidə olunması isə 2014-cü ildən sonrakı prosesin nəticəsi olaraq, demək olar ki, son 5 ilə aiddir. Nəticə isə ondan ibarətdir ki, son illərdə ölkə ümumtəhsil məktəblərinə kifayət qədər hazırlıqlı gənc kadrlar gedir və onlar qısa müddət ərzində böyük nüfuz qazanırlar. Məktəblərin yeni müəllimlərinin dildən-dilə, eldən-elə yayılan nüfuzu isə, sadəcə gənc müəllimlərin özünün deyil, həm də müəllimlərin işə qəbulu üzrə müsabiqənin və bütövlükdə müəllimliyin nüfuzunun artmasına səbəb olur. İndi onların sayı onlarla deyil, yüzlərlədir. Məktəbdə uğur qazanan, təhsildə keyfiyyətə nail olan həmin müəllimlər təkcə məktəblərinin deyil, bütövlükdə təhsil sisteminin qürur yerinə çevrilir.


Babək Rzazadə


Aysel Məmmədova


Nəvai Qənbərov


Səidə Quliyeva


Əjdər Salmanov


Səadət Adnaliyeva


Elgün Şahbazov

### O, Şəmkirdə müəllim olmağa qərar verdi, ailə bölündü

*Aysel Əlizadə* 1995-ci ildə Şəmkirdə doğulub. Məktəbə də Şəmkirdə gedib. Ancaq məktəbi rayonda tamamlamayıb. Qardaşı ali məktəbə daxil olduğundan ailəliklə Bakıda məskunlaşıblar. Gün gəlib, Aysel də məktəbi bitirib, abituriyent olub. Azərbaycan Dövlət Pedaqoji Universitetində İbtidai sinif müəllimliyi ixtisası üzrə təhsil alıb. Müəllimliyə sevgisi olsa da, yaxşı müəllim olacağına inamı da məhz universitetdə möhkəmlənib: “IV kursda oxuyurdum. Riyaziyyat müəllimim Bəymənməd Cəbrayılov məndən yaxşı müəllim olacağını dedi. Düşündüm ki, o mənə belə deyirsə, deməli, həqiqətdir. O sözdən sonra yaxşı müəllim olacağına inamım artdı. Amma yaxşı müəllim olmaq üçün də stimul aldım. Özümü bu istiqamətdə inkişaf etdirmək üçün kiçik fürsətləri dəyərləndirdim”.

Elə ki, müəllim olmaq vaxtı çatıb, Aysel onu hamıdan fərqləndirəcək bir qərar verib. Bu qərar onu ailəsini bölməyə səbəb olsa belə. 2017-ci ildə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə qatılıb: “2017-ci ildə müsabiqənin test imtahanı mərhələsindən 46, 2018-ci ildə isə 55 bal topladım. 2018-2019-cu tədris ili üçün keçirilən MİQ imtahanında topladığım 55 balla Bakı məktəblərindən vakansiya seçə bilərdim. Ancaq Şəmkir rayon Düyərli kənd 2 nömrəli tam orta məktəbində ibtidai sinif müəllimi olmağa qərar verdim. Rayonda oxumuşdum, o mühitə bələdəm. Bilirdim ki, rayonda uşaqlar oxumağa çox həvəslidir. Təhsilə, müəllimə də rayonda daha yüksək dəyər verilir. Rayondakı həvəsi və olmayan imkanları düşündüm. Mənə daha çox harda ehtiyac var, onu fikirləşdim. Ona görə də Şəmkirə getdim. Bu qərarımı ailəm dəstəklədi. Anam mənə görə rayona qayıtdı, atam Bakıda qardaşımla qaldı. Anam hərdən qardaşıma görə darıxsa da, kəndə qayıtmağımızdan məmnundur”.

Aysel yaxşı müəllim kimi rayonda artıq nüfuz qazanıb. Rayon icra hakimiyyəti tərəfindən 2018-2019-cu il üçün “İlin müəllimi” diplomu ilə təltif edilib. Bu, onun uğurlarının başlanğıcıdır.

### Şahid o müəllimdir ki...

Çoxumuzun tanıdığı, fəaliyyətini sosial şəbəkələrdə maraqla izlədiyi *Şahid Muradlı* 2015-ci ildə keçirilən müəllimlərin işə qəbulu müsabiqəsinin yüksəkballı müəllimlərindəndir. Hazırda İsmayıllı rayonu İstisu kənd tam orta məktəbin müəllimidir. “Dünyanı rəngarəng etmək istəyirsənsə #özündənbaşla” adlı layihəsi çərçivəsində 4-cü sinif şagirdləri ilə birgə sinif otağını, partaları, döşəməni rəngləyib, həmçinin divarlarda maraqlı mənzərələr yaradıb. Bütün bunları qısa videoklipdə hazırlayaraq öz Facebook səhifəsinə yerləşdirməsi ilə ictimaiyyətin də diqqətini cəlb etdi. Çoxumuz onu bu addımı ilə tanısaq da, ucqar dağ kəndinə dərs demək üçün yollanan nadir kişi müəllimlərdən olması da onu fərqləndirdi.

Gənc, bacarıqlı, peşəsini sevən ibtidai sinif müəllimi Şahid Muradlı 2011-2015-ci illərdə Qafqaz Universitetində “İbtidai sinif müəllimliyi” ixtisası üzrə bakalavr təhsili alıb. Müəllimlərin işə qəbulu üzrə müsabiqədə 2015-ci ildə 46 bal toplayıb. İsmayıllı rayon İstisu kənd tam orta məktəbində fəaliyyətə başlayıb. Müəllimliyə başlayandan sonra diaqnostik qiymətləndirmədə 51 bal toplayıb. Uğurlarının kökündə isə müəllimlərindən öyrəndikləri durur: “Qazandığım uğurlarıma görə tələbəlik illərində dərs aldığım Əjdər Ağayev, Arzu Yusifqızı, Şaiqə İsgəndərova, İsa Qasımov, Cəmil Məmmədov, Bayram Gündoğdu kimi dəyərli pedaqoqlara, müəllimlərimə borcluyam. Digər ən vacib məqam isə şagirdlərimə olan sevgim və güclü təhsilin gələcəyinə olan inamımdır”.

### Ölkə birincisi ibtidai sinif müəllimi

*Xəyalə Hüseynli* ibtidai sinif müəllimidir. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin ən uğurlularından - 2018-ci ilin respublika birincisidir. Öz üzərində yorulmadan işləməyinin nəticəsidir ki, müəllimlik peşəsində ən təcrübəli müəllimlərlə rəqabət apara bilər. Azərbaycan Dövlət Pedaqoji Universitetini 2012-2016-cı illərdə “İbtidai sinif müəllimliyi” ixtisası üzrə bakalavriat, 2016-2018-ci illərdə magistratura səviyyəsində başa vuraraq müəllimlərin işə qəbulu müsabiqəsinə qatılıb və test imtahanında 59 bal toplayaraq ölkə birincisi olub. Hazırda 20 nömrəli məktəb-liseyin müəllimidir.

X.Hüseynli müsabiqədəki uğurunda magistratura təhsilinin rolunu xüsusi qeyd edir. Ancaq uğurunu daha çox MİQ müsabiqəsinin şəffaf şəraiti və obyektiv qiymətləndirməsi ilə izah edir: “Magistratura təhsili alaraq ixtisasım üzrə biliyimi dərinləşdirdim. Bu təhsilin MİQ-də qazandığım uğurda böyük payı olduğunu düşünürəm. Ancaq uğurumun əsas səbəbini MİQ müsabiqəsinin şəffaf və ədalətli seçim şərtləri ilə əlaqələndirirəm. İnsanın bilik və bacarığı ilə uğur qazana biləcəyindən əminliyi onu öz üzərində daha çox işləməyə həvəsləndirir”.

### Müəllimlik hansısa məktəbdə dərs demək deyil

*Famıl Ağayev* bir neçə dəfə MİQ imtahanlarında iştirak edib. 2014-cü ildə 35 maksimum baldan 32 bal, 2018-ci ildə 60 baldan 49 bal toplayıb. 2019-2020-ci tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu imtahanında 59 bal toplayaraq ölkə birincisi olub. Hazırda 261 nömrəli məktəb-liseydə riyaziyyat müəllimidir: “Məncə, müəllim olmaq təkcə, hansısa məktəbdə dərs demək deyil. Şagirdləri övladın kimi sevmək, onlara qayğı ilə yanaşmaq və hətta lazım gələndə psixoloji dəstək də vermək lazımdır. Mən də bu yolda əlimdən gələni etməyə çalışıram”

### Öyrətmək 2 dəfə öyrənməkdir

*Aysel Məmmədova* ibtidai sinif müəllimliyi ixtisası üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 2008-ci il məzunudur. Müəllimlərin işə qəbulu üzrə müsabiqəyə ilk dəfə 2016-cı ildə qatılıb. 55 bal toplayaraq müsabiqədə ilk uğurunu qazanıb. Səbail rayonundakı 53 nömrəli tam orta məktəbdə müəllimliyə başlayıb. Ancaq Mehdiabadda yaşayan gənc müəllim məktəb yolunu bir az yaxınlaşdırmaq istədiyi üçün yenidən müsabiqədə iştirak arzusuna düşüb. 2018-ci ildə test imtahanından 53 bal toplayıb. Bu nəticə gənc müəllimi qane etməyib. Ona görə 2019-cu ildə yenidən müsabiqəyə qatılıb və bu dəfə 58 bal toplayıb. Artıq 83 nömrəli məktəb-liseyin müəllimidir.

Müəllimliyə onu gətirən - öyrənməyə və öyrətməyə olan sevgisi məktəbdə şagirdlərinə hərf, söz, rəqəm öyrətməklə məhdudlaşmayıb. Bütün bildiklərini hər kəslə paylaşmaq arzusundan müəllim həmkarları da faydalanb: “Whatsapp”da 3 qrup yaratmışam. Hər birində 200-dən artıq müəllim həmkarımla biliyimi paylaşıram. Hazırlaşmalarına kömək etdiyim bir çox namizəd müsabiqədə uğur qazanaraq müəllimliyə başlayıb. Öyrətmək 2 dəfə öyrənməkdir. Mən də öyrədə-öyrədə öyrəndiklərimi möhkəmləndirirəm”.

### Astaranın Babək müəllimi

*Babək Rzazadə* Astaranın Deqədi kəndindəndir. Hələ gənc olsa da, artıq doğulduğu və yaşadığı zonanın, Lənkəran-Astara bölgəsinin Babək müəllimidir.

Bakalavr təhsilini 2009-2013-cü illərdə Lənkəran Dövlət Universitetində “İngilis dili müəllimliyi” ixtisası üzrə alan Babək müəllim bu təhsillə kifayətlənməyib. 2016-2018-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində MBA-Biznesin təşkili və idarə edilməsi (ingilis dilində) üzrə magistr təhsili alıb.

2018-ci ildə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə qatılıb və 51 balla Şahağacı kənd 2 nömrəli tam orta məktəbində işə qəbul olunub. 2019-cu ildə müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsində iştirak edib və iş yerini Astara şəhər M.Ə.Sabir adına 1 nömrəli tam orta məktəbinə dəyişib.

### Ən böyük uğuru şagirdlərinin sevgisidir

*Səidə Quliyeva* Azərbaycan Müəllimlər İnstitutunda qiyabi təhsil alıb. 2018-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsində 51 bal toplayaraq Ucar rayon E.Əliyev adına Ənvər Məmmədxanlı kənd orta məktəbinin müəllimi olmaq hüququ qazanıb. Müəllimlikdə ən böyük uğuru şagirdlərinin sevgisidir. Bu sevgi hər gün onu rayon mərkəzindən kəndə aparır: “Şagirdlərimi sevirəm. Onların da sevgisini qazana bilmişəm. Öyrətməyi də, öyrənməyi də sevirəm. Ancaq öyrəndiklərimi başqalarına öyrətməyi xüsusi həvəslə edirəm. Bu il Təhsildə inkişaf və innovasiyalar üzrə IV qrant müsabiqəsinə də qatıldım və “Həmkardan həmkara dəstək” adlı layihəmlə qaliblərdən biri oldum”.

### “Uğurumun səbəbi müəllimliyə olan həvəsimdir”

*Nəvai Qənbərov* Astara rayonunun Maşxan kəndindəndir. Elə o kənddəcə orta məktəbə gedib müəllimlərindən həyatı və yaşadığı müddətdə ona gərək olacaq vacib bilgiləri, sonra universitetə girib müəllimliyi öyrənib. 2016-cı ildə Lənkəran Dövlət Universitetini “Tarix-coğrafiya müəllimliyi” ixtisası üzrə bitirərək hərbi xidmətə yollanıb. Bu bir il müəllimliyə olan həvəsini nəinki azaldıb, əksinə daha da möhkəmləndirib. Qayıdandan sonra müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edib. 2018-ci ildəki həmin iştirakı nəticəsində müəllim olmaq hüququ qazanıb. İmtahanda topladığı 46 bal ona Ağcabədi rayon Ağdam 40 nömrəli köçkün ümumi orta məktəbində müəllim olaraq sinfə girmək səlahiyyəti verib. 2019-cu ildə yenidən müəllimlərin işə qəbulu müsabiqəsinə qatılıb və bu dəfə 58 bal toplayaraq ilin ən yüksək nəticə göstərənlərindən biri olub. Hazırda Astara rayonunun həm Çayoba kənd P.Həsənov adına tam orta, həm də Astara şəhər Ceyhun Babayev adına 3 nömrəli tam orta məktəblərində coğrafiya müəllimidir: “Müəllimliyi çox sevirəm. Hər gün növbəti dərsimə həvəslə hazırlaşır, öz üzərimdə çox işləyirəm”.

### “Şagirdlərimin sevincini izləmək uğurumun bir parçasıdır”

*Əjdər Salmanov* Azərbaycan Dillər Universitetinin məzunudur. 2004-2008-ci illərdə alman dili müəllimliyi ixtisası üzrə bakalavr təhsili alıb. İlk dəfə 2017-ci ildə MİQ imtahanında iştirak edib və 53 bal toplayıb. 2019-cu ildə qatıldığı imtahanda da nəticə dəyişməyib. Abşeron rayonu Aşağı Güzdək qəsəbə tam orta məktəbin müəllimidir: “İlk məqsədim tədris etdiyim xarici dili - alman dilini şagirdlərimin sevməsinə nail olmaqdır. Kollektivlərdə kişi müəllimlərin azlıq təşkil etdiyini müşahidə edirəm, xüsusən də alman dili müəllimləri. Ümid edirəm ki, bu tendensiya yaxın gələcəkdə dəyişməyə başlayacaq”.

Əjdər Salmanovun fikrincə, uğur böyük, nisbi anlayışdır: “Mənim üçün uğurun düsturu yoxdur. Başqalarının kiçik gördüyü hərəkət mənim üçün uğur ola bilər. Məsələn, hər dərs sonu şagirdlərimin sevincini izləmək uğurumun bir parçasıdır”.

### Ağcabədidən açılan cığır

*Nəzrin Qasımzadə* 2018-2019-cu tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu üzrə imtahanda 45 bal toplayıb. Neftçala rayon Mürsəqulu kənd İ.Səfərov adına tam orta məktəbin müəllimidir. Ancaq Ağcabədidə də çox yüksək rəy formalaşdırıb. Necə?

Nəzrin, əslində Sumqayıtda doğulub, Lənkəranda oxuyub. 2012-2017-ci illərdə Lənkəran Dövlət Universitetində “Tarix-coğrafiya müəllimliyi” ixtisası üzrə təhsil alıb. 2018-ci ildə keçirilən müəllimlərin işə qəbulu müsabiqəsində 45 bal toplayıb. Ağcabədinin Kürdlər kəndində işə başlayıb. Onun işə başlaması ilə kənddə coğrafiyaya münasibət tamamilə dəyişib: “Abituriyentlərim vardı, hamısı nüfuzlu ali məktəblərə daxil oldu. Mənim üçün ən böyük sevinc ondan ibarətdir ki, abituriyentlərim imtahan sualları arasında ən çox coğrafiyadan olan suallara doğru cavab yazmışdılar. Mənim hazırladıqlarım uşaqlar arasında elə uşaqlar elə ali məktəbə daxil oldu ki, heç kim onların nəinki ali məktəb, ümumiyyətlə, oxuyacağına belə inanmazdı. Hazırladıqlarım arasında öz yaşıdım belə oldu. Hərbi xidmətdən qayıtdıqdan sonra coğrafiya üzrə onu hazırlaşdırmağımı, ali məktəbə getmək istədiyini dedi”.

Nəzrin müəllim növbəti tədris ilindən Neftçalada işləyəcək. Ağcabədidə qoyduğu izi Neftçalada daha da dərinləşdirəcəyinə inanır.

### Orta ixtisas təhsilli məşhur müəllimlər

Cəlilabad rayon Hacıcavad kənd ümumi orta məktəbinin müəllimi *Elgün Şahbazov* orta ixtisas təhsilli olsa da, kişi ibtidai sinif müəllimləri arasında 2019-cu ildə ölkə birincisi olub. Nədə? Təbii ki, müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsində. 2008-ci ildə Çünzəli kənd tam orta məktəbini bitirib. 2010-2014-cü illərdə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində ibtidai sinif müəllimliyi üzrə təhsil alıb. 2017-ci ildə keçirilən 2017-2018-ci tədris ili üçün müəllimlərin işə qəbulu imtahanında topladığı 47 balla Cəlilabad rayon Ləzran kənd ümumi orta məktəbində ilk peşə fəaliyyətinə başlayıb. İşlədiyi məktəb yaşadığı kənddən uzaq məsafədə yerləşdiyi üçün 2019-cu ildə yenidən müsabiqəyə qatılıb və test imtahanında 58 bal toplayıb. Bu uğurdan sonra da o, kənd məktəbindədir - Hacıcavad kənd ümumi orta məktəbinin müəllimidir.

Bakı şəhəri 205 nömrəli orta məktəbin ibtidai sinif müəllimi *Səadət Adnaliyeva* isə müəllimlikdə ilk təcrübəsini problemli sinifdə başlayıb. 2019-2020-ci tədris ili Bakı Humanitar kollecinin məzununun ilk fəaliyyət ili idi. 3 il ərzində 5 müəllim dəyişən dəcəl üçüncülər yeni müəllimini təbəssümlə qarşılayıb: “Problemli sinfi direktor mənə verəndə dedi ki, bacarmasan, təcrübəli müəllimlərdən kömək alarsan. Ancaq mən “Bacaracağam” dedim. Çünki özümə inanırdım. Nə şagirdlərim, nə də onların valideynləri bilir mənim müəllimliyimin ilk ili olduğunu. Deyən olsa, heç inanmazlar da. Məktəbimizdə 6 gün dərs keçilir. Qarşıma məqsəd qoydum ki, uşaqlar hətta bazar günü dərs olsa, yenə eyni həvəslə gəlsinlər. Maraqlı oyunlar hazırladım. Dərsimi oyunlarla qurdum. Aldığım nəticə məktəb rəhbərliyi üçün də, elə mənim sinfimə bələd olanlar üçün də təəccüblü oldu. Mənim üçün isə bu, sadəcə hədəfimə çatmaq idi. Nəticədə çox gözəl bir il yaşadım. İlk fəaliyyət ilimdə diplom, fəxri fərman aldım. Gözəl dərs nümunələrini onlayn dərs formatında da tətbiq etdim. Pandemiya dövründə uşaqlarımdan əl çəkmədim. Nəticə ondan ibarətdir ki, “205 nömrəli tam orta məktəbdə Səadət müəllim” deyiləndə tanıyan hər kəs yüksək fikirlər səsləndirir və qürurla deyirəm ki, mən buna cəmi bir tədris ili ərzində nail olmuşam”.

Layiq olduğunu təsdiqləmək onun üçün heç də asan olmayacaqdı: “Ailəli, iki uşaq anası, üstəlik uşaqlarından biri körpə olan bir qadın üçün hazırlaşmağın elə də asan olmadığını təsəvvür etmək çətin deyil. Gecə 2-dən sonra oturub hazırlaşırdım. Artıq 6 il idi kolleci bitirmişdim. Müəllimlərin işə qəbulu imtahanına ilk dəfə girəcəkdim. Bu çətinliklərə baxmayaraq imtahandan 56 balla çıxdım. Növbəti mərhələləri də uğurla keçdim. Müsahibədə komissiya üzvlərindən biri “bu il zövqlə dinlədiyimiz namizəd sən oldun", - dedi”.

Səadət müəllim əvvəlcə imtahanda, sonra da sinfində müəllimliyə layiq olduğunu təsdiqlədi. İnklüziv sinifdə 27 yaşlı gənc müəllim üçün çətin olacağını düşünənlərə əksini isbat etdi. S.Adnaliyeva bu il müsabiqədənkənar ali məktəbə daxil olmaq şansından da yararlanacaq. Çoxlu planları, hədəfləri olduğunu deyir: “Müəllimlik mənim üçün müqəddəs peşədir və onun uğrunda əlimdən gələn hər şeyi eləməyə hazıram. Təlimçi olub müəllimlərə kömək etmək, daha sonrakı mərhələlərdə pillə-pillə yüksəlmək, direktor olmaq istəyirəm.Təhsildə faydalı fəaliyyətimlə cığır açmaq, bu cür tanınmaq əsas hədəfimdir. Təhsilimi isə davam etdirəcəyəm. Magistratura, hətta doktorantura səviyyəsində təhsil alıb öz övladlarımın, dövlətimin qarşısında sayılıb-seçilənlərdən olmağı hədəfləyirəm. Bütün bunlara nail olacağımı bilirəm, çünki özümə güvənirəm”.



# Dünya yeni tədris ili qarşısında

## Məktəblərin yenidən açılması təcrübəsindən

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

### Əlavə vəsait qoyuluşu

Pandemiya şəraitində məktəblərin açılması baha başa gəlir. Epidemioloqların tələbi ilə təhsil müəssisələrinin istifadəsində kifayət qədər yuyucu və dezinfeksiyaedici vasitələr olmalı, şagirdlər, müəllimlər və digər əməkdaşlar maskalarla təmin edilməlidir. Məktəb binalarında ventilyasiya sistemləri yaxşılaşdırılmalı və əllərin yuyulması üçün əlavə su çanaqları ("moyka") qoyulmalıdır.

Məktəblərin xərcləri həm də ona görə artır ki, sinifləri daha kiçik hissələrə ayırmaq məcburiyyəti əlavə müəllimlər işə götürməyi tələb edir. İlkin hesablamalara görə, ABŞ-ın 3200 şagirdi olan təkcə bir məktəb dairəsində təhlükəsizlik tədbirlərinin tətbiqi 1,8 milyon dollara başa gəlir, bu, hər bir uşaq üçün təxminən 565 dollar (480 avroya) yatırım deməkdir.

Yeni şəraitdə müəllimlərə, xüsusilə də tədris prosesinin tez-tez oyun formasında davam etdiyi kiçik siniflərdə dərs demək çətindir. Müəllimlər üçün şagirdlərdən virusa yoluxmaq riski də böyükdür. Böyüklər üçün xəstəlik daha ağırdır, buna görə də yeni tədris metodlarını inkişaf etdirmək və təhlükəsizlik tədbirlərini daim yadda saxlamaq lazımdır.

### Hansı tədbirlər tətbiq olunur?

*Qoruyucu maskalardan istifadə.* Tədqiqatlar göstərir ki, bu, infeksiya ehtimalını əhəmiyyətli dərəcədə azalda bilər. Bir çox məktəb birbaşa tələb edir ki, həm təhsilalanlar, həm də müəllimlər sinifdə dərs zamanı maskada olsunlar. Tayvanda məktəblərin əksəriyyəti karantin üçün bağlanmadı və dövlət hər iki həftədən bir məktəbə uşaqlar və böyüklər üçün yeni maskalar paketi göndərməkdə davam edir.

*Temperaturun ölçülməsi.* Bir çox məktəblərdə bu da məcburi tələbdir. Yüksək temperaturu olan uşağın məktəbə gəlişinə icazə verilmir. Uşaqların temperaturunu təmassız termometrin köməyi ilə məktəbin girişində yoxlayır, valideynlərdən də evdə anoloji temperatur dəyişikliyini yoxlamağı xahiş edirlər.

*Fiziki məsafə.* Məktəb administrasiyaları bu tələbə riayət etmək yollarını müəyyən edirlər - tədris masalarını bir-birindən daha uzaqda yerləşdirir, siniflərdə şəffaf plastik baryerlər quraşdırır, ümumi istifadə yerlərini bağlayırlar. Şagirdlər və müəllimlər arasında ən azı 2 metr məsafə saxlamağa çalışırlar. Honkonq məktəblərində, məsələn, yeməkxana bağlanıb, nahar üçün yeməklər evdən gətirilir.

Uşaqları, xüsusilə balacaları bir-birindən lazımi məsafədə saxlamaq çətindir. Buna görə Danimarka məktəblərində, məsələn, bu tələbə əməl edilmir. Orada kiçik qruplar formatından istifadə olunur. Bir qrupdan olan uşaqlar eyni vaxtda məktəbə gəlirlər, bütün günü bir otaqda və ya bir oyun meydançasında olurlar; bütün günü onlarla yalnız bir müəllim məşğul olur. Onlardan biri yoluxsa, infeksiyanı izləmək və təcrid etmək daha asandır.

### Pandemiya zamanı məktəblər necə dəyişir?

*Kiçik siniflər.* Ekspertlər kontaktları azaltmaq üçün sinifdə şagird sayını 10-12-yə endirməyi təklif edirlər. Adi bir məktəb sinfində 30 və ya daha çox uşaq ola bilər, buna görə təhsil idarəçiləri müəyyən tədbirlər görməlidir. Bəzi məktəblərdə şagirdlərin bir hissəsi üçün tədris bazar ertəsi və cümə günləri, digərləri üçün isə çərşənbə axşamı və cümə günlərini əhatə edən şahmat proqramları işlənib hazırlanıb. Tokioda dərslər iki qrupa bölünüb, şagirdlər səhər və günorta yeməyindən sonra iki növbədə dərslərdə iştirak edirlər.

*Həssas qruplar üçün prioritetlər.* Danimarkada ilk olaraq 12 yaşdan kiçik uşaqlar üçün məktəblər açılıb: hesab edilir ki, onlar daha az yoluxma riskinə məruz qalırlar, yuxarı sinif şagirdləri ilə müqayisədə onlar interaktiv əyani təhsildən daha böyük fayda əldə edirlər. Uruqvayda ilk olaraq kənd rayonlarından olan uşaqları və müxtəlif səbəblərdən uzaqdan təhsil ala bilməyənləri məktəbə qaytarıblar.

*Açıq havada dərslər.* Bəzi məktəblər infeksiya riskini azaltmaq üçün dərslərin bir hissəsini hava şəraiti imkan verdiyi qədər məktəb binalarının xaricində keçdilər.

*Koronavirus analizləri.* Məktəblərdə müntəzəm testlərin aparılması halları hələlik nadirdir. Məsələn, Almaniyada bir məktəb bu mənada nümunə ola bilər. Bu məktəbdə həftədə iki dəfə şagirdlərə və müəllimlərə pulsuz test dəstləri təklif olunur (onlar evdə özlərini test edirlər). Lüksemburqda isə may ayında dərslərin bərpasından əvvəl təxminən altı min yuxarı sinif şagirdi və iki min müəllim sınaqdan keçirildi.

Alimlər razılaşırlar ki, internetdə öyrənmə məktəbdə əyani məşğələləri tam kompensasiya edə bilməz. Tədqiqatlar göstərir ki, karantin dövründə uşaqlar əldə etdikləri bilik və sosial bacarıqların bir hissəsini itiriblər.

Bununla belə, bəzi ölkələrdə hökumətlər riskə getməməyi və məktəblərin açılışını təxirə salmağı qərara aldılar. Filippində yeni dərs ilinin başlanğıcından etibarən səlahiyyətlilərin qərarı ilə uşaqlar effektiv bir vaksin əldə edilənə qədər məsafədən təhsil alacaqlar. Doğrudur, müəllimlər artıq 27 milyon məktəb yaşlı uşağın kompüter və ya internetə çıxışı olmadığı barədə narahatlıqlarını ifadə ediblər.

Bəlkə də ən radikal addım Keniya Təhsil Nazirliyi tərəfindən atılıb. Bu ölkə iyul ayında məktəblərin 2020-ci ilin sonuna qədər bağlanacağını elan edib. Şagirdlərə keçilmiş materialı təkrarlamaq tövsiyə olunub.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5954, **Sifariş** 1903

**Məsul növbətçi:** O.Mustafayev




# “Əsgər marşı” şagirdlərin ifasında

Mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar xeyli müddətdir evdə qalan paytaxt məktəbliləri yay tətili günlərində də vaxtlarını daha maraqlı və əyləncəli keçirmək üçün müəllimləri tərəfindən onlayn şəkildə müxtəlif tədbirlərə, aksiyalara cəlb olunurlar.

Bu baxımdan Bakının 7, 32, 68, 71, 116, 201, 261, 263, 288, 306, 313, 328, 329 nömrəli tam orta məktəbləri və S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası şagirdlərinin “Əsgər marşı”nı onlayn ifası əsasında hazırlanan videoçarx xüsusi maraq doğurur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) pedaqogika üzrə fəlsəfə doktoru Nərmin Kamilovanın rəhbərliyi və dirijorluğu, həmçinin məktəblərin musiqi müəllimlərinin dəstəyi ilə ərsəyə gələn videoçarxın çəkilməsində məqsəd şagirdlərə hərbi vətənpərvərlik hisslərini aşılamaq, onların Azərbaycanın Silahlı Qüvvələrində xidmətin müqəddəs borc və şərəf işi olmasına inamını möhkəmləndirmək, məktəblilərdə dözümlülük, cəsurluq, intizam kimi mənəvi keyfiyyətləri inkişaf etdirmək, Vətənə sevgi və məhəbbət duyğularını daha da gücləndirməkdir.

Qeyd edək ki, videoçarxda həmçinin Tovuz döyüşlərində əsgərlərimizin göstərdikləri şücaətdən bəhs edilir, döyüşlərdə qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə ucalan vətən oğulları ehtiramla yad edilir.

# Etibarsız sayılır

**Bakı şəhər** 99 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Balayeva Zərnişan Əlisurət qızına verilmiş A-500783 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** H.Mahmudbəyov adına 2 nömrəli Texniki Humanitar Elmlər Liseyini 2012-ci ildə bitirmiş Rəhimli Rəhim Məhəmməd oğluna verilmiş A-116845 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Səhlabad kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Sadıqova Sevil Nadir qızına verilmiş 484243 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Məktəbəqədər Pedaqoji Texnikumu** tərəfindən 2003-cü ildə Mehdiyeva Vəfa Ədalət qızına verilmiş AB-II-068698 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Qazax filialı** tərəfindən 2004-cü ildə Nəsibova Zoya Yusif qızına verilmiş B-020804 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** II-Şahsevən kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş İbrahimli Zeynal Mahir oğluna verilmiş E-163262 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Şamilov Fuad Elxan oğluna verilmiş A-069219 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** M.Ə.Sabir adına 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Piriyev Ağalar Telman oğluna verilmiş A-705939 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Talıstan kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Sayılov Samir Pənah oğluna verilmiş B-373184 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** H.Hüseynov adına 4 nömrəli humanitar fənlər təmayüllü məktəb-liseyi 2008-ci ildə bitirmiş Həmdullayeva Pərvanə Yəhya qızına verilmiş B-547251 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2008-ci ildə Hacıyeva Pərvin Vəlixan qızına verilmiş BB-I-010176 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Qənbərov Ramin Vasib oğluna verilmiş B-203694 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abbasov Emin Vaqif oğluna verilmiş B-260694 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** M.Aranlı adına şəhər 11 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Bəhruz Eldar oğluna verilmiş A-719985 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Yuxarı Qiyaməddinli kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Quliyev Eldar Nurəddin oğluna verilmiş A-682259 nömrəli ümumu orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Yeni Dizaxlı kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Sultanova Dilbər Əziz qızına verilmiş E-317852 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 111 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Abdullayeva Aygün Nizami qızına verilmiş A-960766 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Əli Bayramlı Sənaye Texnikumu Füzuli filialı** tərəfindən 1994-cü ildə Cəfərova Əsmər Qənimət qızına verilmiş PT-I-118485 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2002-ci ildə Məmmədova Vüsalə Döylət qızına verilmiş A-082412 nömrəli fərqlənmə bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Qarağac kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş İsayev Rasif Rauf oğluna verilmiş A-380236 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Qayıdış qəsəbə 7 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Heydərova Vüsalə Şahvələd qızına verilmiş B-469425 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Tüntül kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Kərimova (Ağayeva) Günel Elman qızına verilmiş B-211180 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** Humanitar fənlər gimnaziyanı 2012-ci ildə bitirmiş Yaqubov Firuz Rəhmətulla oğluna verilmiş A-158191 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qida Sənayesi Kolleci** tərəfindən 2019-cu ildə Novruzlu Nərmin Sabir qızına verilmiş AA-122363 nömrəli subbakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Seyidova Leyla Vüsal qızına verilmiş A-496072 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Kürkənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Ələkbərov Qurban Yəhya oğluna verilmiş A-001541 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2013-cü ildə Əliyev Rəhim Fərrux oğluna verilmiş A-027749 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2008-ci ildə Məhəmmədyarov Rafik Şakir oğluna verilmiş B-119322 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Balakən Rayon Təhsil Şöbəsinin kollektivi Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırova anası

**SƏİDƏ BAĞIROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İstedad sorağında

**Oruc MUSTAFAYEV**

Başa vurduğumuz tədris ili ölkəmizin təhsil sistemində bir sıra uğurlarla yadda qaldı. Təhsil Nazirliyi tərəfindən istedadlı uşaqların aşkara çıxarılması, bilik və bacarıqlarının stimullaşdırılması, onlarda elmi tədqiqatçılıq səriştələri və yaradıcılığın inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin təşkili nəticəsində şagirdlərimiz bir sıra beynəlxalq əhəmiyyətli olimpiadalarda uğurlar qazanaraq öz layiqli töhfələrini veriblər. Cari tədris ili həm də bir sıra xarici universitetlərdə təhsil alan tələbələrimiz üçün də yaddaqalan olub. Öz uğurları ilə diqqətçəkən gənclərimizi oxuculara təqdim edirik.



## Uğur qazanan gənclərimizi tanıyaq



**Günay Kazımzadə,**
*Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının məzunu, Dövlət Proqramı təqaüdçüsü*

2019-2020-ci tədris ilində Almaniyanın Federal Təhsil və Tədqiqat Nazirliyi tərəfindən Süni İntellekt üzrə ilin gənc tədqiqatçısı mükafatına layiq görülüb.



**Rüstəm Cəmilov,**
*Dövlət Proqramı təqaüdçüsü, Böyük Britaniyanın London Biznes Məktəbinin (LBS) doktorantı*

2019-2020-ci tədris ilində AQR Aktiv İdarəetmə İnstitutunun London Biznes Məktəbinin aktivlərin idarə edilməsi sahəsində tədqiqatlar aparan istedadlı doktorantları üçün nəzərdə tutulmuş Təqaüd mükafatını qazanıb.



**Abbas Məmmədov,**
*Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi*

Cari tədris ilində Balkan Riyaziyyat Olimpiadasında (BMO) bürünc, Qafqaz Riyaziyyat Olimpiadasında (CMO) qızıl, Beynəlxalq Jautikov, Asiya Pasifik Riyaziyyat, Kiber Fəza Riyaziyyat olimpiadalarının gümüş medallarına layiq görülüb. Respublika fənn olimpiadalarında fizika üzrə qızıl medal qazanaraq "Birincilərin birincisi" olub.



**Murad Ağazadə,**
*Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi*

Cari tədris ilində Beynəlxalq Jautikov, Balkan Riyaziyyat olimpiadalarının gümüş, Qafqaz Riyaziyyat, Beynəlxalq Riyaziyyat, Kiber Fəza Riyaziyyat olimpiadalarının bürünc medallarını qazanıb. Bu il riyaziyyat üzrə Respublika fənn olimpiadasında qızıl medala layiq görülüb, "Birincilərin birincisi" olub.



**Abutalıb Namazov,**
*Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi*

2020-ci ildə Qazaxıstanda keçirilən 16-cı Beynəlxalq Jautikov Olimpiadasında qızıl, Moskvada Beynəlxalq Meqapolis Olimpiadasında gümüş medallara layiq görülüb.



**Murad Eynizadə,**
*Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi*

2020-ci ildə Qazaxıstanda keçirilən 16-cı Beynəlxalq Jautikov Olimpiadasında gümüş, Beynəlxalq Meqapolis Olimpiadasında bürünc medallara layiq görülüb.



**Əziz Hüseynov,**
*Gəncə şəhəri 15 nömrəli tam orta məktəbin X sinif şagirdi*

Yeniyetmələrin Avropa informatika, Bolqarıstanda keçirilən IATI-də gümüş, Qazaxıstanda keçirilən beynəlxalq Jautikov olimpiadasında bürünc medallar qazanıb. Cari tədris ilində Respublika fənn olimpiadalarında informatika üzrə qızıl medala və "Birincilərin birincisi" adına layiq görülüb.



**Əjdər Fərzullazadə,**
*Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi*

Cari tədris ilində keçirilən Respublika fənn olimpiadalarında biologiya üzrə qızıl medala layiq görülərək "Birincilərin birincisi" nominasiyasını qazanıb. 54-cü Mendeleyev Beynəlxalq Kimya Olimpiadasında bürünc medala layiq görülüb.



**Ziya Rəsulzadə,**
*Oğuz rayonu Xaçmaz kənd M.F.Axundov adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

2019-2020-ci tədris ilində Respublika fənn olimpiadalarında coğrafiya üzrə qızıl medal qazanaraq "Birincilərin birincisi" nominasiyasının qalibi olub.



**Məhəmməd Yusifov,**
*Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin XI sinif sagirdi*

Cari tədris ilində Qazaxıstanın Almatı şəhərində keçirilən XVI Beynəlxalq Jautikov, IV Avropa Fizika olimpiadalarında bürünc medallar qazanıb. Bu il Respublika fənn olimpiadalarında fizika üzrə qızıl medal qazanaraq "Birincilərin birincisi" olub.



**Uğur İlyaslı,**
*Sumqayıt şəhəri 2 nömrəli tam orta məktəbin X sinif şagirdi*

2019-2020-ci tədris ilində Respublika fənn olimpiadalarında tarix üzrə qızıl medala layiq görülüb, "Birincilərin birincisi" nominasiyasını qazanıb.



**Sədiyar Qafarov,**
*Kimya-biologiya təmayüllü Respublika liseyinin X sinif şagirdi*

Cari tədris ilində Yeniyetmələrin XVI Beynəlxalq Elm Olimpiadasında bürünc medal qazanıb. Respublika fənn olimpiadalarında biologiya fənni üzrə qızıl medal qazanıb və "Birincilərin birincisi" nominasiyasına layiq görülüb.



**Hüseyn Mehdiyev,**
*Bakı şəhəri 151 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

Bu il keçirilən Respublika fənn olimpiadalarında qızıl medal qazanaraq "Birincilərin birincisi" nominasiyası üzrə qalib elan olunub.



**Əkbər Vahablı,**
*Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi*

Bu il keçirilən Respublika fənn olimpiadalarında Azərbaycan dili və ədəbiyyat fənni üzrə qızıl medal qazanıb, "Birincilərin birincisi" nominasiyasına layiq görülüb.



**Fərid İsmayılov,**
*Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin XI sinif şagirdi*

Cari tədris ilində Kiber Fəza Riyaziyyat Olimpiadasında (Cyberspace Mathematical Competition) bürünc medal qazanıb.



**Toğrul Abbasov,**
*Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin IX sinif şagirdi*

2020-ci ildə Qazaxıstanda keçirilən 16-cı Beynəlxalq Jautikov, Kiber Fəza Riyaziyyat olimpiadalarında (Cyberspace Mathematical Competition) bürünc medallar qazanıb.



**Yusif Qasımov,**
*Bakı şəhəri 220 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi*

İyulun 21-də virtual olaraq keçirilən Kiber Fəza Riyaziyyat Olimpiadasında (Cyberspace Mathematical Competition) bürünc medal qazanıb.



**Fidan Qarayeva,**
*Bakı şəhəri 257 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi*

İyulun 21-də virtual olaraq keçirilən Kiber Fəza Riyaziyyat Olimpiadasında (Cyberspace Mathematical Competition) bürünc medal qazanıb.



**Aysun Bayramlı,**
*Humanitar Fənlər təmayüllü məktəb-liseyin 10-cu sinif şagirdi*

İyulun 21-də virtual olaraq keçirilən Kiber Fəza Riyaziyyat Olimpiadasında (Cyberspace Mathematical Competition) bürünc medal qazanıb.



**Xanım Yaqublu,**
*Dəyanət Vəqfi Bakı Türk Liseyinin 10-cu sinif şagirdi*

Cari tədris ilində Yeniyetmələrin XVI Beynəlxalq Elm, 54-cü Mendeleyev Beynəlxalq Kimya olimpiadalarının gümüş medallarına layiq görülüb.